# "Nə mütləq liberalizm, nə də mütləq kollektivizm"

## Azərbaycan İstiqlal Bəyannaməsi və Rəsulzadənin izahları



Dilqəm ƏHMƏD

(əvvəli ötən sayımızda)

***Solidarizm nəzəriyyəsini qəbul edən müsavatçılıqda fərd qanun nəzərində hər cəhətdən bərabər və tam hüquqlu bir vətəndaş olub, siyasi, əqidəvi və fikri azadlıqlardan istifadə edəcəkdir. Müsavatçılıqda mülkiyyət haqqı əsasdır. Rəsulzadə həm liberalizmin, həm də kommunizmin Azərbaycandakı topluma xas olmadığını izah edib: "Nə fərdi hürriyyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiyası ilə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq kölə və makinə halına gətirən kommunizm əsarəti. Nə mütləq liberalizm, nə də mütləq kollektivizm. O halda ikisini təlif edən solidarizm".***

Rəsulzadənin təklif etdiyi solidarizm sistemində mütləq hürriyyət və mülkiyyətdə qismi şərtlər təklif edilib:

"Təsanüdçülükdə müasir mədəniyyətin əsasını təşkil edən hürriyyət, şəxsi təşəbbüs və mülkiyyət əsasları mövcuddur. Lakin eyni zamanda dövlət mütləq liberalizmdə olduğu kimi fərdlər, siniflər və zümrələr arasındakı münasibətlər və mücadilələrə laqeyd, sırf nəzarətçi vəzifəsilə mükəlləf bir müəssisə deyildir. Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil, şərtidir. Şərt isə ümumun mənfəəto və dövlətlə millətin səlaməti üçündür. Şəxsin, zümrə və ya sinfin hürriyyəti kollektivin ali mənfəətləri və azadlığını pozmamaq şərtləri ilə çərçivələnmişdir. Solidarizmdə dövlət millətin nümayəndəsi və cəmiyyətdəki münasibətlərin nizamlayıcısıdır".

Rəsulzadəyə görə solidarizmdə dövlət hürriyyət və mülkiyyətin azadlığını və inkişafını zədələmədən ümumi mənfəətlərə ziyan vuran aşırı liberal həmlələri tənzimləməkdədir. Onun fikrincə, liberalizm də kommunizm kimi aşırı kosmopolitdir, solidarizm isə millidir. Liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində, kommunizm isə sinif eqoizmində görür. Solidarizm isə mədəniyyəti fərd eqoizmi ilə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bilir. Mədəniyyət və tarix bağları ilə mənəvi birlik təşkil edən bir millətin fərdləri bütünün ortaq mənfəətlərini qorumaq üçün öz şəxsi hirs və mənfəətlərini hüdudlandırmaq məcburiyyətindədirlər. Bütünün mənfəətlərini təmsil edən müəssisə dövlətdir.



Məhəmmədəmin Rəsulzadə XIX əsrdən etibarən başlayan və əsas hərəkətverici qüvvələrindən olan müsavatçılıq əsasının da yer aldığı coğrafi Azərbaycandan siyasi Azərbaycana gedən yolu ümumiləşdirərək azərbaycançılıq kimi adlandırıb. Çünki Rəsulzadə və Müsavat partiyası nə Rusiya tərkibində bütün müsəlman və türklərin birliyi ideyasını, nə də Azərbaycanın tarixi keçmiş və mədəniyyət bağları ilə yaxın olduğu Osmanlı imperiyasına birləşməsini müdafiə edib. İstər muxtariyyət tələbi dövründə, istərsə də istiqlalçılıq düşüncələrində Azərbaycanın ayrıca müstəqil dövlət kimi formalaşması fikrini dəstəkləyib. Rəsulzadə azərbaycançılıq ideologiyasını əsərində bu şəkildə izah edib: "Azərbaycançılıq istiqlalçılıq deməkdir. O istiqlalçılıq ki, tarixin ən böyük müəssisəsi olan milliyyətin dövlət olmaq üzrə müzəffər yürüyüşü deməkdir; Azərbaycançılıq böyük türk irqinə mənsub bir millətin istiqlalını qazanmaq üçün başlanmış şanlı bir mücadilədir; Azərbaycançılıq eyni zamanda bir hürriyyət və mədəniyyət hərəkatıdır ki, onun əsas mahiyyəti xalqçılıq və milli hakimiyyətdir; Azərbaycançılığın siyasi nümayəndəsi Müsavat partiyasıdır.

***Azərbaycan parlamentindəki çıxışında Rəsulzadə yeni yaranan dövlətin hələ ki konstitusiyası olmasa da, parlamentarizmə söykəndiyini bildirib: "Azərbaycanda konstitusiya hələ tərtib verilməmişsə də, biz parlamentarizmi qəbul etmişik və konstitusiyamızın baş xəttini parlamentarizm təşkil edəcəkdir. Biz parlamentarizm qəbul etmiş olan məmləkətlərin, o cümlədən İngiltərənin qanunlarından asanlıqla istifadə edə bilərik. Parlaman məbusu milləti təmsil edir, ona görə, o həmişə azad olmalıdır. Bir məbus eyni zamanda hökumət məmuru olarsa, heç vaxt azad danışa bilməz. Parlamansız məmləkətdə istibdad olar. Halbuki biz parlaman və cümhuriyyət əsası ilə yaşamalı və məmləkətimizi bu əsas ilə idarə etməliyiz"***

***Məhəmmədəmin Rəsulzadə Azərbaycan milli hərəkatını həm məhəlli tarixi keçilmişliyə bağlayır, həm də Avropadakı azadlıq hərəkatlarının nəticəsi olaraq formalaşdığını bildirib. O, Azərbaycandakı milli hərəkatın xarakterini bu şəkildə izah edib:***

"İdeoloji mənşəyi etibarilə milli Azərbaycan hərəkatı Şərqdəki milli qurtuluş ideyaları ilə Qərbdəki kültür və demokratiya cərəyanlarını öz növündə birləşdirmiş bir hərəkatdır. Müsəlman və türk məmləkəti olması etibarilə Qafqaz Azərbaycanı nə din, nə irq, nə də kültür baxımından özü ilə qətiyyən əlaqəsi olmayan Rusiya tərəfindən ancaq silah gücü ilə tutulmuşdur və məlum olduğu üzərə tarixi ənənəsi türk və İslam düşmənliyinə dayanan bu dövlətə heç bir zaman isinəmədiyindən gərək türkçülük və gərəksə islamçılıq ideyaları burada daima canlı inikaslar bulmuşdur. Zamanın keçməsi və ictimai qüvvətlərin açılması sayəsində cəmiyyət hərəkatına geniş xalq təbəqələrinin daha ziyadə qovuşması nisbətində müsəlman Şərqin digər hər hansı bir məmləkətindən daha əvvəl Azərbaycandakı milli hərəkat Avropayi bir şəkil almışdır".

Azərbaycan parlamentindəki çıxışında Rəsulzadə yeni yaranan dövlətin hələ ki konstitusiyası olmasa da, parlamentarizmə söykəndiyini bildirib: "Azərbaycanda konstitusiya hələ tərtib verilməmişsə də, biz parlamentarizmi qəbul etmişik və konstitusiyamızın baş xəttini parlamentarizm təşkil edəcəkdir. Biz parlamentarizm qəbul etmiş olan məmləkətlərin, o cümlədən İngiltərənin qanunlarından asanlıqla istifadə edə bilərik. Parlaman məbusu milləti təmsil edir, ona görə, o həmişə azad olmalıdır. Bir məbus eyni zamanda hökumət məmuru olarsa, heç vaxt azad danışa bilməz. Parlamansız məmləkətdə istibdad olar. Halbuki biz parlaman və cümhuriyyət əsası ilə yaşamalı və məmləkətimizi bu əsas ilə idarə etməliyiz".

Nəticə olaraq qeyd edək ki, Məhəmmədəmin Rəsulzadə istər ictimai-siyasi, istərsə də mətbu fəaliyyətində çar müstəmləkəçiliyinə və işğaldan sonra bolşevizm düşüncəsinə qarşı respublikaçılığı, müsavatçılıq və daha ümumiləşdirilmiş ideologiyası olan azərbaycançılığı qoyub. Rusiyanın müsəlmanlar yaşayan bölgələrində, eləcə də Cənubi Qafqazda ümmətdən millətə keçid dövrünü dəstəkləyən Rəsulzadə bölgənin istiqlalının əldə edilməsi ilə yanaşı yaranacaq dövlətin çağdaş dəyərlər əsasında idarə edilməsinin də vacibliyini başa düşüb. Həm Müsavat partiyasının sədri, həm də Azərbaycan Milli Şurasının sədri kimliyi ilə Azərbaycanda cümhuriyyətçiliyin, sosial ədalətə söykənən müsavatçılığın, vətəndaşlar arasında birliyi simvolizə edən parlamentalizmin müdafiəçisi olmaqla mühacirətdə yaratdığı təşkilat və mətbu orqanlarda da davamlı şəkildə gündəmə gətirib. ***Rəsulzadə Cənubi Qafqaza müəyyən qədər gecikmiş şəkildə gələn millətləşmə dövrünü daha geniş planda başa düşərək vahid Azərbaycan milləti və bu millətin yaşadığı coğrafi bölgəni və bu bölgə üzərindəki milli və demokratik hakimiyyətin qurulmasında mühüm xidmətlər göstərib. Etnik azlıqlarında təmsilçilərinin yer aldığı, eləcə də müxtəlif görüşlü fraksiyaların olduğu, tam azad şəkildə müzakirələrin aparıldığı bir parlamentin qurulması da birbaşa onun adı ilə bağlıdır.***